**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

**Azərbaycan Türkiyə Tarixi Araşdırmalar Fondunun (ATAF)**
**Himayəçilik Şurasının üçüncü iclası keçirildi**

**No: 09/02/06**
**11.06.2009**

10 iyun 2009-cu ildə Azərbaycan Türkiyə İş Adamları Birliyinin (ATİB) ofisində Azərbaycan Türkiyə Tarixi Araşdırmalar Fondunun (ATAF) Himayəçilik Şurasının üçüncü iclası keçirildi.

İclasda ATAF-ın idarəedilməsinin təkmilləşdirilməsi məsələləri də müzakirə edilərək yeni İdarə Heyəti formalaşdırıldı. Asim Mollazadə İdarə Heyətinin sədri, Ahmet Erentok və Ceyhun Mollazadə İdarə Heyəti sədrinin müavinləri, Adil Bağırov, Orhan Samast, Korhan Yurtsever və Ural Aküzüm İdarə Heyətinin üzvləri seçildilər.

Daha sonra ATAF Təftiş Komissiyasının 2008-ci il üzrə fəaliyyəti barədə hesabat, komissiya tərəfindən təqdim edilmiş rəyə əsasən fondun 2008-ci il üzrə illik balansı və maliyyə hesabatları təsdiq edildi.

İclasda Himayəçilər Şurasına yeni üzvlərin qəbul edilməsi barədə məsələyə baxıldı. Müzakirələr nəticəsində Himayəçilər Şurasına yeni üzvlərin qəbul edilməsi ilə Himayəçilər Şurasının üzvlərinin sayı 80 nəfərə qədər artdı.

Daha sonra iclas iştirakçıları 15 noyabr 2008-ci ildə Bakıda, Atatürk Mərkəzində keçirilən Azərbaycan Türkiyə Tarix Araşdırmaları Fondunun 2-ci iclasından sonra həyata keçirilən fəaliyyətləri müzakirə etdilər.

Azərbaycan Türkiyə Tarix Araşdırmaları Fondunun (ATAF) təsisçisi olan Azərbaycan Türkiyə İş Adamları Birliyinin Amerika Assosiasiyaları Rəhbərləri Cəmiyyətinin (American Society of Association Executives – ASAE) hər il keçirdiyi "Association Make a Better World" müsabiqəsinə təqdim etdiyi "ATAF. Avrasiyada Sosial və İqtisadi İnteqrasiya Modeli olaraq Regional Sülh naminə Birgə Fəaliyyət" adlı

layihəsinin HONORABLE MENTION AWARD WINNER nominasiyasında qalib elan edilməsi haqqında toplantı iştirakçılarına məlumat verildi. Bu təşəbbüs ASAE tərəfindən həyata keçirilən proqramda iştirak edən namizədə təmsil etdiyi təşkilatı tanıtmaq imkanı yaradır. Qeyd edək ki, ASAE (www.asaecenter.org) dünya üzrə 287 milyon nəfəri əhatə edən 10 mindən artıq assosiasiya ilə əməkdaşlıq edir.

İclasda Azərbaycan Respublikası dövlət orqanlarının, elm dairələrinin, qeyri-hökumət təşkilatlarının, iş dünyasının nümayəndələri və nüfuzlu ictimai-siyasi xadimlər iştirak etdilər.

**Qısa tarixi arayış**

15 may 2006-cı ildə Türkiyə Tarix Qurumu, Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutu, Bakı Dövlət Universiteti və ATİB-in təşkilatçılığı ilə BDU-da "Azərbaycan və Türkiyə Tarixində Erməni Məsələsi" adlı konfrans təşkil edilmişdi. Konfransın yekununda adıçəkilən 4 təşkilat tərəfindən Bakı Bəyannaməsi qəbul edilmiş və Dördtərəfli Əməkdaşlıq Protokolu imzalanmışdır. Adıçəkilən qurumlar bu sənədlər əsasında iki ölkənin ümumi məsələsi olan "Azərbaycan və Türkiyə tarixində erməni problemi" üzrə sənədlərə əsaslanan həqiqətlərin müəyyən edilməsi və ictimaiyyətin məlumatlandırılmasını təmin etmək məqsədilə birgə fəaliyyət göstərməyi qərara almışdılar. Dördtərəfli Əməkdaşlıq Protokolunun həyata keçirilməsi üçün yaradılan Koordinasiya Şurasının 27 fevral 2007-ci ildə Ankarada keçirilən iclasda işlərin daha sistemli şəkildə həyata keçirilməsi üçün qeyri hökumət təşkilatının, yəni Azərbaycan Türkiyə Tarixi Araşdırmalar Fondunun yaradılması qərara alındı.

Təşəbbüsün məqsədi Azərbaycan və Türkiyə tarixinin araşdırılması və ortaq problemlərin müəyyən edilməsinə köməklik göstərilməsi, onların həlli yollarının müəyyən edilməsi və təkliflər hazırlanması; regionda xalqların sülh və əmin-amanlıq mühitində yaşamalarına və iqtisadi inteqrasiyaya mane olan problemlərin həllinə və bu çərçivədə regionun iqtisadi rifahının yüksəlməsinə töhfə verməkdən ibarətdir.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az

**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATAF-ın İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**